**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının iclasının**

***1 №-li***

***P R O T O K O L U***

***Bakı şəhəri*** ***19 fevral 2016-cı il***

**Sədrlik etdi:** **Şuranın sədri:**
**V.Məmmədov – sədrin birinci müavini**

**İştirak etdilər:** **Şuranın üzvləri:**

Q.Əliyev - Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri;

V.Məmmədəlizadə - Keyfiyyətin idarə edilməsi və metaməlumatlar şöbəsinin müdiri;

H.Dadaşov - Sənaye və tikinti statistikası şöbəsinin müdiri;

R.Suleymanov - İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri;

A.İbrahimova - Ticarət statistikası şöbəsinin müdiri;

G.Məmmədov - Kənd təsərrüfatı statistikası şöbəsi müdirinin müavini.

**Katibliyin rəhbəri:**

V.Muradova - Ümumi şöbənin müdiri.

**Katibliyin üzvləri:**

V.Alıyeva - İnsan resursları və hüquq şöbəsinin hüquqi təminat sektorunun baş məsləhətçi - hüquqşünası;

S.Dadaşova - Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin Müəssisələr statistikası sektorunun baş məsləhətçisi.

**Gündəlikdə müzakirə olunan məsələ:**

Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının fəaliyyət istiqamətləri və əsas vəzifələri haqqında

**Eşidildi:**

**V.Məmmədov** çıxış edərək, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanının icrası olaraq Dövlət Statistika Komitəsinin 7/t №-li 11 fevral 2016-cı il tarixli əmri ilə komitədə yaradılmış Apellyasiya Şurası haqqında ümumi məlumat verərək bildirdi ki, Şuranın yaradılmasında əsas məqsəd sahibkarların şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə onların hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsidir.

Daha sonra V.Məmmədov Apellyasiya Şurasının növbəti iclaslarının sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərdən komitəyə təkrar şikayətlərin daxil olacağı təqdirdə və ya zərurət yarandığı hallarda keçiriləcəyini iştirakçıların nəzərinə çatdırdı və eyni zamanda, İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinə Şuranın fəaliyyəti haqqında əhalinin məlumatlandırılması, informasiyaların komitənin rəsmi internet saytında yerləşdirilməsinə nəzarətin təmin edilməsi ilə bağlı öz tapşırıqlarını verdi.

Apellyasiya Şurasının vəzifələri, hüquqları, fəaliyyətinin təşkili haqqında ətraflı məlumat üçün söz katibliyin üzvü, baş məsləhətçi-hüquqşünas Vüsalə Alıyevaya verildi.

**V.Alıyeva** Apellyasiya Şurasının fəaliyyətinin təşkili, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərdən daxil olan şikayətlərə baxılması qaydaları, araşdırma üsulları və forması, şikayətlərə dair tələblər, şuranın iclaslarının keçirilməsi qaydası, qərarların qəbulu və onların icrası, şikayətlərin təhlili və qeydiyyatı, qanunla açıqlanması qadağan edilən məlumatların qorunması və digər məsələlər barədə məlumat verdi. O, Apellyasiya Şurasında baxılmış hər bir şikayət üzrə müraciəti etmiş şəxsə araşdırmanın nəticəsinə dair əsaslandırılmış qərar və ya yazılı cavabın göndərilməsinin zəruri olduğunu bildirdi. V.Alıyeva həmçinin qeyd etdi ki, Apellyasiya Şurasının üzvləri şuranın iclaslarında səs çoxluğu ilə qəbul edilmiş qərarlardan razı olmadıqda, həmin məsələlərin kollegiya iclasında müzakirə edilməsi üçün yazılı şəkildə əsaslandırılmış rəylə Dövlətstatkomun sədrinə müraciət edə bilərlər.

**Qərara alındı:**

Apellyasiya Şurasının katibliyi aparatın İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsi ilə birlikdə:

- Apellyasiya Şurasının fəaliyyəti ilə bağlı texniki təminatın həyata keçirilməsi üçün zəruri avadanlıqlara tələbatı müəyyən edib təkliflər versin;
- Apellyasiya Şurası iclaslarının protokollarının komitənin internet səhifəsində yerləşdirilməsinə nəzarəti həyata keçirsin.

**Sədr** **Vahab Məmmədov**

**Katib** **Viktoriya Muradova**